# ƏSİRLİKDƏ QALMIŞ İRƏVAN XANLIĞININ PƏMBƏK MAHALINDA ARÇUT (ARDIC) KƏNDİ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ (1941-1945-ci illər)

*(Kiçik bir hekayə)*

*Müharibə bir tarixi oyundur, bəzən ən mahir də uduzur.*
**M.K.Atatürk**

Alman-rus müharibəsinin başlanması və fəsadlar. 1941-1945-ci illərdə Qırmızı İmperiyanın bütün xalqları, o cümlədən Arçut kəndinin sakinləri də müharibənin aktiv iştirakçısı oldu. Onlar günü-gündən çox ağır, məşəqqətli, dözülməz günlər yaşamağa başladılar.

1941-ci ilin iyun ayının xoş bir günündə Arçut camaatı yaylaq mövsümü keçirirdilər. 6 yaşım yeni tamam olmuş mən də ailəmlə bərabər yaylaq evimizə köçmüşdük. İyun ayının xoş bir günündə - 22 iyunda kəndin yaylaq yurdlarını müşahidə edilə bilən bir təpədə camaat gördü ki, Arçut Kənd Sovetinin katibi Ələsgərov İsmayıl at belində yaylaq alaçıqlarında yaşayan əhaliyə səsləndirdi ki, bu gecə saat 4-də Germaniya hökuməti Sovet Vətənimizə hücum edib, 12 şəhərimizi alıb, 120 km. məsafədə torpağımızı, orada olan yaşayış məskənlərimizi işğal edib. SSRİ Ali Soveti bütün ölkədə hərbi vəziyyət elan edib və 1905-1922 tarixlərdə anadan olmuş Sovet vətəndaşları Qızıl orduya çağırılır, o, 30 nəfərin adını oxudu və dedi ki, sabah bu adamlar hərbi komissarlıqda olmalıdırlar.

Müharibəyə nəinki ailənin işçi qüvvəsi, hətta at, eşşək və digər nəqliyyat vasitələri də səfərbərliyə cəlb edilirdi.

Dəqiqə başına xəbərlər yayılırdı ki, Hitler Almaniyasının ordusu sürətlə irəliləyir. Bu qara kabusun qarşısını almaq üçün Sovet İttifaqının hər yerində olduğu kimi bizim kəndin də ərazisində müdafiə tədbirləri həyata keçirilirdi: yeraltı tikililər tikilirdi, 50 yaşından yuxarı kişilər və 14-16 yaşlı gənclər bu müdafiə tədbirlərinə cəlb edilmişdir. Sovet İttifaqının "Böyük Vətən müharibəsi" adlandırdığı bu müharibədə arxa cəbhədə qalan qoca, qadın və uşaqların həyat şəraitinin vəziyyəti ön cəbhədə - səngərlərdə düşmənə qarşı vuruşan əsgər və zabitlərin həyat şəraitindən qat-qat ağır idi. O cümlədən, Arçut camaatı çox ağır və məşəqqətli, dözülməz günlər yaşayırdı. Hər bir ailənin başçısı və 16 yaşdan yuxarı olan övladı hərbi səfərbərliyə alınmışdır. Ailələr bir tərəfdən insan itkisinə, digər tərəfdən aclıq, yoxsulluq, səfalət, xəstəlik, yetimlik və s. xoşagəlməz hallara məruz qalırdı. Xalqdan yığılan pul və bağlamalar camaatı sarsıtmışdır.

Müharibənin 4 ili ərzində insanlar yay vaxtı 2-3 ay yalnız göy pencər otları və ağartı (süd, qatıq, pendir) ilə qidalanırdılar. Onların gigenik qaydaları, əmək rejimi pozulmuşdur. Paltar yumaq üçün əksər hallarda yanacaq külündən, gildən istifadə edirdilər, bitə qarşı mübarizə paltarını uzun müddət qazanda qaynadılması idi; əksər hallarda sabunsuz başlarını yuyurdular. Hətta mən onu gördüm ki, analar qızlarının başında yaranan sirkəsini neft əldə edib təmizləyirdilər. Oğlanların başının hər bir tükündən bit yağırdı. Kənddə yalnız bir qoca Nazad Məhəmməd kərəntidən hazırladığı bıçaqla oğlan uşaqlarının başını qırxırdı. O, da yorularaq deyirdi ki, qalan uşaqlar sabah gəlsin.

Kolxozçuların və fəhlələrin işlərinin saat müddəti yox idi. Onlar 14-16 saat işləyirdilər. Qalan az vaxt içərisində əksər valideynlər qadınlardan ibarət olan kütlə pələsənk vəziyyətə düşürdülər. Onlar yatan və ağlayan uşaqlarını rahatlayıb, onlara yem hazırlayırdılar. Demək olar ki, o, anaların dinc vaxtı olmurdu. Bu baxımdan bir dəfə bizim ailədə baş vermiş bir epizod haqqında danışa bilərəm.

Anam kolxozun 12 inəyini sağırdı. Sağından sonra kolxozun əlavə işlərinə gedirdi. Biz uşaqları üçün o, yemək hazırlamaq vaxtı tapa bilmirdi. Onun himayə etdiyi 6 uşağın isti xörəkləri axşama qalırdı. O, gecədən keçmiş vaxtda gəlib həyətdə, evin ora-burasında yatan uşaqlarına yem hazırlayırdı. Bir dəfə mən gözümlə gördüm. Anam xörək hazırlayarkən anamın donu yandı, anam oyandı, yanmış donunu söndürdü. Mən ağlayaraq qonşuya xəbər etdim.

Digər bir əsgər ailəsinin iki uşağı - bir oğlan 10 yaşında, bir qız 8 yaşında acından üzülərək öldükləri barədə kəndə xəbər yayıldı. Ancaq uşaqların atası Stalinqrad cəbhəsindən məktub yazırdı ki, tezliklə almanları məğlub edib gələcəm. Təəssüf ki, onun tezliklə qara kağızı gəldi. Bu hadisə barədə bu ailənin müasir törəmələrinə mən bu barədə danışdım. Onların xoşuna gəlmədi və bildirdilər ki, bizim tayfada belə iş olmayıb, bir daha bunu danışma. Ona görə bu qısa hekayədə onların adını çəkmirəm.

Müxtəlif formada belə bədbaxt hadisələr camaat işində baş alıb gedirdi. Ancaq ayağı tutan kənddən aran rayonlarına (Qazağa və Borçalıya) müvəqqəti köçməyə çalışırdılar. Onlar gedib aran deyilən kəndlərin zirzəmilərində yaşayaraq, müşəlik edib çörək pulu qazanıb ailələrini yaşadırdılar.

Bir çox insanlar isə ev əşyalarını və yavanlıqlarını aran kəndlərində dəyər-dəyməzinə satıb ərzaq alırdılar. Ancaq alınmış ərzağın evə gətirilməsi böyük bir problem idi. Nəqliyayt vasitələri bir yana dursun, dövlət qulluqçuları alınmış ərzaq məhsullarını çox zaman müsadirə edirdilər ki, dövlət planı ödəməyib, ona görə ərzağın başqa yerə çıxarılması qadağandır. Digər bir çətinlik də ondan ibarət idi ki, hər bir əsgər ailəsi, ümumiyyətlə, oğurluğun qarşısını almaq üçün həmişə oyaq olduqlarını nümayiş etdirirdilər.

Bu acınacaqlı vəziyyətə baxmayaraq, arçutlular cəbhəyə ətlik, taxıl, qoşqa heyvanları (öküz, at, eşşək), paltarlar - corablar, əlcəklər, yundan hörülmüş jaktlər göndərirdilər. Hər əsgər ailəsi orduya səfərbər olunmuş əzizlərinə - oğul, qardaş və digər qohumların ünvanlarına vaxtaşırı bağlamalar göndərirdilər. Baxmayaraq ki, əsgər ailələrinin - qocaların, qadın və uşaqların vəziyyəti çox acınacaqlı idi. əksər valideynlər və məktəbli uşaqlar bir qarnı ac, çılpaq və ayaqyalın vəziyyətdə yaşayırdılar. Ancaq belə bir vəziyyətdə Sovet idarələri və məktəblər fəaliyyətlərini dayandırmırdılar. Uşaqların məktəbdən yayınması qar yağanda onların ayaqyalın olmasından irəli gəlirdi. Bu dəhşətin qarşısının alınmasında rayon tərəfindən köhnə aftomaşın kameraları göndərilirdi. Ondan rezin çarıxlar tikilirdi. İmkansız ailələrin uşaqlarına paylanırdı. Yeri gəlmişkən, bu yuxarıda qeyd edilən acınacaqlı vəziyyət 1950-ci ilə qədər davam etdi. Müharibənin o qızğın vaxtlarında mövsüm vaxtı məktəbin ikinci sinif şagirdlərindən başlayaraq yuxarı sinif şagirdlərinə qədər işlədirdilər. Hətta mən o dövrün ikinci sinif şagirdi kimi biçilmiş yerdən 8 kq. sünbül yığmışam. Məktəbin böyük mükafatını almışam. Mükafat da ondan ibarət idi ki, məktəb uşaqlarına 100-200 q. arasında çörək verirdilər. Bu çörəyi uşaqlar məktəbdən yayınmasın deyə verirdilər. Əlaçı və yaxşı oxuyan uşaqlara 200 q. çörək verirdilər. Yuxarıda adı çəkilən mükafata görə bir müddət həmin o 200 q. çörək mükafatını mən aldım. Ancaq şagirdlərə verilən bu çörək də çox çəkmədi, 1943-cü ilin əvvəlindən kəsildi. Etiraz edən valideynlərə dedilər ki, səngərlərdə əsgərlər aclıq şəkirlər, ona görə siz də kömək edin.

Yaşayış mövcudluğunun təminatı və fəsadları. Atalar burada demişdir: "Yemək və yanacaq ortaq qardaşdır". Yanacaq cəhətdən bizim kəndin vəziyyəti çox acınacaqlı idi: meşənin uzaqlığı və oradan yanacaq əldə edilməsi böyük bir həlli olamayan problem idi. Ona görə əhali örüşlərdən mal peyini və komlarda qoyun peyini yığıb, ona su qatıb, ayaqları ilə yoğururdular, xamır kündəsi kimi yumrulayıb, yappa yapırdılar. Həmin yanacağa yappa deyilirdi, o quruyurdu, qış onun vasitəsilə isinirdilər. Əlbəttə ki, bu bütün kütləni əhatə etmirdi. İmkanlılar ailəni odun yanacağı ilə təmin edirdilər. Yuxarıda deyilən yappa yanacağından başqa, gəbən deyilən yağlı ot bitkisindən də istifadə edirdilər. Bu bitkinin çox möhkəm kökü var idi, həm də o kirpi tikanı kimi tikanları var idi. Bu bitkidən istifadə eləmək üçün iki dənə 1.5 m. hündürlüyündə və en kəsiyi 5-7 sm. metr olan 2 ağacı 15-20 sm. zəncirlə birləşdirilən "mancalaq" deyilən alət hazırlayırdılar. Mancalağı gəbənin dibinə salıb, burub çıxardırdılar. Həmin gəbəndən həm mal yemi kimi, həm də yanacaq kimi istifadə edirdilər. Mal yemini hazırlamaq üçün gəbənin tikanlarını salon alovunda yandırırdılar və balta ilə doğrayıb mala-qoyuna verirdilər.

Müharibə dövrünün ağır antipodlarından biri də müxtəlif adlı xəstəliklərin - qrip, boğ azağrısı, qarın yatalığı, qarayatalıq (tip) və jsair xəstəliklər baş alıb gedirdi. Dövlət baş vermiş xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirirdi. Məsələn, 1942-ci ilin dekabr ayında bizim kənddə İsa kişinin evində səyyar hamam düzəltdilər. Hər bir ailənin üzvlərini məcburi surətdə aparıb hamamlayırdılar və paltarlarını dizenfeksiya edirdilər. Bir ailəni (ana və uşaqları) bir dəfə hamama doldururdular. Hamamın suyu bəzən həddindən artıq isti olurdu. Bizim ailə hamamda olarkən məndən böyük qardaşım Mürşüd tez tujun altda girmişdi. O, birdən dəhşətlə çığırdı ki, su məni yandırdı. Hamamı dayandırıb, normal hala saldılar.

Yuxarıda deyildiyi kimi məktəb həmişə fəaliyyətdə idi. Ancaq yanacaqdan korluq çəkirdi. Ona görə direktor valideynlərə və uşaqlara xahiş edirdi ki, ya bir təzək parçası (malın peyini həyətə tökülüb ayaqlanırdı, buna basma deyirdilər, bu basma quruduqdan sonra onu eni-uzunu 30-40 sm. ölçüdə bellə kəsib, qalaq qururdular, bu parçaya təzək deyirdilər), ya da iki yappa uşaqlarına versinlər ki, onlar gətirdiyi yanacaqdan istifadə edib isinsinlər.

Kolxozda işləyən qocalar və qadınlar illik əmək haqqına 10-15 pud (1 pud 16 kq.) arasında ərzaq - taxıl ala bilirdilər. Bu kəndlilərin kolxozdan aldıqları əmək haqları onların ərzaq ehtiyatını 3 ay ancaq ödəyirdi. Ancaq onların saxladıqları mal-qoyun onlara kömək edirdisə də, bu da onların dolanacağını təmin etmirdi. Hər bir kolxozçuya 26 sot torpaq verilmişdir. Bu torpağın da müqabilində hər kolxozçu icazə verilmiş iki inək və on beş qoyun saxlaya bilmirdi. Bu mal-qaranın da saxlanmasında daha bir problem - mal yeminin əldə edilməsi idi. ancaq torpaqdan əldə etdikləri məhsul nə mal yeminə kömək edirdi, nə də kəndlinin digər ərzaq probleminə. Əksər kolxozçular qeyd edilən torpaq sahəsinə taxıl əkirdilər. Onlar ümumiyyətlə, səbirsizliklə gözləyirdilər ki, taxıl nə ola tez yetişə, ondan yem üçün istifadə etsinlər.

*(Davamı var)*



*Yusif QAZIYEV,*
*Pedaqogika üzrə elmlər doktoru,*
*Əməkdar müəllim, Əmək veteranı*
*AJB-nın üzvü, "Qızıl Qələm" laureatı jurnalist-publisist,*
*Prezident təqaüdlü,*
*müstəqil tədqiqatçı*